# MÜNDƏRİCAT


**ÖN SÖZ.** AÇILMAMIŞ SƏHİFƏLƏR ..... 8

PARTİYALARIMIZA ..... 15

TARİXİ GÜNÜMÜZ ..... 18

TƏƏSSÜRAT ..... 20

TƏƏSSÜRAT ..... 24

ANDRANİKİN MƏSƏLƏSİ ..... 30

TƏƏSSÜRAT ..... 35

VƏZİFƏMİZ NƏDİR ..... 39

LƏNKƏRAN FACİƏSİ ..... 41

KİM NƏYİN FİKRİNDƏ İMİŞ ..... 45

BİR İLTİMAS MÜNASİBƏTİLƏ ..... 49

DÜŞMƏNLƏRİMİZİN FƏALİYYƏTİ ..... 54

CAMAAT KÖMƏKLİYİ ..... 57

TƏƏSSÜRAT ..... 61

EHTİYAT LAZIMDIR ..... 68

TƏƏSSÜRAT ..... 72

FİTNƏLƏR QARŞISINDA ..... 74

QARABAĞ HAQQINDA ..... 77

TƏƏSSÜRAT ..... 81

BAŞLANIR ..... 85

RUS İNQİLABİ-KƏBİRİ ..... 89

YARAŞMAZ HƏRƏKƏTLƏR ........ 93
YENİ KABİNƏ TƏŞKİLİNƏ DAİR ........ 96
ORDUMUZ ........ 99
CİDDİ HƏRƏKƏT LAZIMDIR ........ 101
ƏYRİ YOL ........ 103
KİRİMİRLƏR ........ 107
YENİ KABİNƏ ........ 110
DAĞISTAN VƏ BİZ ........ 114
EYNİ MÜAMİLƏ GÖZLƏYİRİK ........ 116
NƏ İSTƏYİRLƏR ........ 119
SİYASİ İMTAHAN ........ 122
XATİMƏ ........ 125
SİYASİYYAT ........ 127
İNDİ BAŞA DÜŞÜRLƏR ........ 129
NAXÇIVAN VƏ QARABAĞ ........ 133
DƏRBƏND ƏHVALATI ........ 136
BİR YAŞ ........ 137
ŞİMALIMIZIN HALI ........ 141
QARA TƏHLÜKƏ ........ 145
İÇİMİZDƏKİ DENİKİNLƏR ........ 146
BİR MÜNASİBƏTLƏ ........ 149
MACƏRAÇILIQ ........ 151
QARABAĞ HADİSATI ........ 154
“SƏDDİ-İSGƏNDƏR” ........ 156
RUSİYA ƏHVALI ........ 158
SƏMİMİYYƏT LAZIM ........ 163

NABEMÖVSİM SEVİNCLƏR .................................................... 166
İKİ SİYASƏT ............................................................................ 169
ERMƏNİSTAN VƏ AZƏRBAYCAN MÜNASİBƏTİ ......................... 172
BİR SUAL MÜNASİBƏTİLƏ ....................................................... 176
ƏSASSIZ TƏLƏB ..................................................................... 179
GÜRCÜSTANDAKI HƏVADİS .................................................. 182
QONŞULUQ ............................................................................. 185
ÇÖRƏK BAHALANMASI ........................................................... 189
BÖHRAN DOLAYISİLƏ ............................................................. 191
MƏCBURİ QƏRARDAD HAQQINDA ......................................... 195
BU GÜN ................................................................................... 199
ŞAYİƏLƏR MÜNASİBƏTİLƏ ..................................................... 203
YENİ KABİNƏ ........................................................................... 205
ORDAN-BURDAN .................................................................... 209
ORDAN-BURDAN .................................................................... 212
ORDAN-BURDAN (SÜLH KONFRANSINDA) ................................ 214
ORDAN-BURDAN (MUĞANDA) ................................................. 217
ORDAN-BURDAN .................................................................... 220
ZURNA .................................................................................... 222
ZURNA .................................................................................... 225
ZURNA .................................................................................... 228
ZURNA .................................................................................... 232
SÖZLÜK .................................................................................. 234

## ÖN SÖZ

## AÇILMAMIŞ SƏHİFƏLƏR

1918-ci ildə dahi Azərbaycan bəstəkarı Üzeyirbəyin 33 yaşı vardı. Bu vaxta qədər artıq o, Füzuli şeirinin kövrək misralarından yaranan eyniadlı poeması əsasında bəstələdiyi "Leyli və Məcnun"u ilə Azərbaycanda opera sənətinin təməl daşını qoymuşdu. Sonra bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüstəm və Söhrab" (1910), "Şah Abbas və Xurşidbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operalarını yaratmışdı. Bu operaların librettosu xalq dastanları və rəvayətləri, Firdovsi "Şahnamə"sinin motivləri əsasında yazılmışdı.

Bu əsərləri meydana gətirməklə Üzeyirbəy Hacıbəyli professional milli musiqinin əsasını qoymuş, yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərq müsəlman dünyasında musiqinin ən mürəkkəb janrını – operanı yaratmış, bu sənətin banisi olaraq yüksəlmişdi. Ü.Hacıbəylinin musiqisi xalq musiqi təfəkkürünün ən dərin qatlarına nüfuz edərək onun canlı və özünəməxsus xüsusiyyətlərini müasir dünya musiqisinin, birinci növbədə Qərb musiqisinin nailiyyətləri ilə üzvi şəkildə birləşdirir, bununla da yeni keyfiyyətli milli bədii sənəti təmsil edirdi. Onun hələ ilk operaları

bir cəhəti ilə – xalq ruhuna, mənəviyyatına dərin bağlılıq xüsusiyyətilə fərqlənirdi. Təsadüfi deyildi ki, onun operalarının ədəbi əsasını folklor, əfsanə və dastan, xalq tarixi ilə əlaqədar hadisələr təşkil edirdi.

Üzeyirbəy həmçinin Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Komediyalarının mətnini özü yazırdı. Artıq o, müxtəlif qəzet və jurnallarda qələmini sınamış və istedad sahibi olduğunu sübut edərək müxtəlif səpkili yazılarla oxucu qəlbinə yol tapa bilmişdi. Lakin əsrin əvvəllərində Ü.Hacıbəyli musiqi ilə yanaşı, publisist və yazıçı kimi də qızğın fəaliyyətdə idi. O, “İrşad”, “Həqiqət”, “Yeni iqbal”, “Tərəqqi”, “Həyat”, “Molla Nəsrəddin” və s. mətbuat orqanlarında “Behmənkəs”, “Bisavad”, “Lal uşaq”, “Musiqiçi” və bir çox imzalarla çıxış edirdi. Üzeyirbəy “Ordan-burdan”, “O yan-bu yan”, “Dərədən, təpədən” kimi sərlövhələr altında dərc olunan felyetonların müəllifi idi. Felyetonların əksəriyyətinə “Filankəs” imzası qoyurdu.

Bu mətbu orqanlar haqqında kifayət qədər yazıldığını nəzərə alıb, burada Üzeyirbəyin 1918-20-ci illərdə Azərbaycan Demokratik Respublikası hakimiyyəti dövründə “Azərbaycan” qəzetindəki ədəbi fəaliyyətini müxtəsər qeyd etmək istərdik.

“Azərbaycan”ın bağlanmasından ötən 70 ildən artıq bir müddətdə bu qəzetin fəaliyyəti haqqında danışmaq, hətta adını çəkmək yasaq olmuşdu. Təsadüfi deyil ki, Üzeyirbəy sağlığında bu qəzeti “unutmuş” və oradakı ədəbi fəaliyyəti üzərindən sükutla keçmişdi. Lakin Üzeyirbəyin jurnalistlik və publisistik fəaliyyətini diqqətlə tədqiq etdikdə bu nəticəyə gəlmək olur ki, onun ən fəal ədəbi yaradıcılığı bilavasitə məhz bu qəzetlə bağlıdır. Onun yazıları demək olar ki, hər gün, yaxud günaşırı müxtəlif mövzularda

“Azərbaycan” qəzetində çap olunurdu; bəzən bir nömrədə iki yazısı ayrı-ayrı imzalarla çıxırdı.

Qeyd etmək lazımdır ki, 1918-ci ilə qədər “Azərbaycan” adlı mətbuat orqanına rast gəlmirik. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd edilsə də, yuxarı dairələr tərəfindən qarşısı alınırdı. Bunun da səbəbi aydındı. “Azərbaycan” adında qəzet nəşri böyük bir ölkənin, böyük bir millətin varlığını təsdiq etmək idi. Bu isə çarizmin siyasətinə uyğun deyildi. Çar Rusiyası dağılandan sonra belə fürsət ələ düşmüş və onun ilk təşəbbüsçüsü, qəzetin naşiri və baş redaktoru Feyzulla Əliquluzadə olmuşdu. Lakin o tezliklə fəaliyyətini dayandırmışdı.

1918-ci ildə yeni qurulan Azərbaycan hökumətinin həmin ilin 3 sentyabr tarixli qərarına əsasən, bir çox çətinliklərdən sonra ayın 14-də Gəncə şəhərində nəşrə başlayan “Azərbaycan” qəzeti dörd nömrədən sonra oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir.

“Azərbaycan” qəzeti 8-ci nömrəyə qədər – oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, oktyabr ayının 8-dən 1919-cu il yanvar ayının 16-na kimi Üzeyirbəyin kiçik qardaşı, tarixçi, jurnalist, publisist Ceyhunbəyin (1892-1961), 89-cu nömrədən 1919-cu il 4 iyul tarixli 216-cı nömrəyə qədər müvəqqəti olaraq Üzeyirbəyin, 4 iyul 216-cı nömrədən sentyabr ayının 1-i 265-ci nömrəyə qədər bir müddət Xəlil İbrahimin (1892-1938), ən nəhayət sentyabr ayının 1-i 265-ci nömrədən 1920-ci il aprel çevrilişinə qədər Üzeyirbəy Hacıbəylinin rəhbərliyi ilə çıxmışdı.

Qəzetin ilk redaktoru olmuş Ceyhun bəy yeni Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında Əlimərdan bəy Topçubaşovun başçılığı altında

Məmmədhəsən Hacınski, Əhməd bəy Ağayev, Əkbərağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Versal Sülh konfransında iştirak etmək üçün Parisə getmiş və qəzetin nəşrinin ağırlığı bütünlükdə Üzeyirbəyin üzərinə düşmüşdü. Bu barədə, Ceyhun bəy 9 yanvar 1919-cu ildə "Azərbaycan" qəzetində "Möhtərəm qarelərimizə" sərlövhəli müraciətində belə yazırdı:

"Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetəmizin müdiri sifətilə ifadə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kəmali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim.

*"Azərbaycan" qəzetəsinin müdiri*
***Ceyhun bəy Hacıbəyli***

Azərbaycan xalqının azadlığı naminə mübarizə aparan, dəfələrlə təhqir və haqsız hücumlara məruz qalan Üzeyirbəyin qəflətdən səhhəti pozulur və 1919-cu il iyun ayının əvvəllərində o, Bakını tərk etməyə məcbur olur. Bu barədə qəzetin səhifələrində oxuyuruq: “Qəzetəmizin müvəqqəti müdiri Hacıbəyli Üzeyirbəy əfəndi səhhətini düzəltmək məqsədilə bir müddətə Bakıdan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir. (“Azərbaycan” qəzeti, 6 iyul 1919-cu il)”.

Üzeyirbəy iki aylıq müalicəsindən qayıtdıqdan sonra “Azərbaycan” qəzetində işə 1919-cu il sentyabr ayından başlamış və 1920-ci il aprelin 27-nə kimi qəzetin müdiri işləmişdir.

Beləliklə, bu deyilənlər kifayət qədər əsas verir ki, “Azərbaycan” qəzetinin nəşrində Ü.Hacıbəylini müstəsna xidmətləri, rolu və iştirakı olan bir naşir hesab edək. Qəzetə rəhbərlik etməklə Ü.Hacıbəyli onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqil respublika kimi möhkəmlənməsinə çalışmışdır.

Qəzetdəki fəaliyyətində Ü.Hacıbəyli özünü istedadlı, bacarıqlı, dərin düşüncəli və ideyalı bir publisist kimi göstərmişdir.

Ümumiyyətlə, dünya mədəniyyəti tarixində elə şəxsiyyətlər olub və indi də vardır ki, onlar əsas sənətindən əlavə başqa peşələrin sahibi olublar, bu sahələrdə də özlərini göstərə biliblər.

Üzeyirbəy də belə sənətkarlardandır. Dahi bəstəkarımızın bu çoxcəhətli fəaliyyətindən danışaraq zəmanəmizin böyük musiqiçisi Qara Qarayev yazmışdır: "R.Şuman, F.List, P.Çaykovski dövri mətbuatla müəyyən dərəcədə bağlı olublar. Məsələn, R.Şuman Leypsiq şəhərində "Yeni musiqi" qəzetini təsis edib, F.List musiqi tənqidinin gözəl nümunələrini yaradıb, P.Çaykovski "Russkiye vedomosti" qəzetinə Moskvanın musiqi həyatına dair məqalələr yazmışdı..."

Üzeyirbəyin 1920-ci illərə qədərki ədəbi fəaliyyəti imkan verir ki, onu gözəl jurnalist, kəskin qələmli felyetonçu, misilsiz operetta librettolarının müəllifi kimi qiymətləndirək. Lakin buna baxmayaraq, bir müddət bizdə Üzeyirbəydən əsasən ancaq bəstəkar kimi bəhs olunmuşdur, onun yazıçılıq və publisist yaradıcılığı kölgədə qalmışdır. Son onilliklərdə isə ədəbiyyatşünaslar, tədqiqatçılar, üzeyirşünaslar onun diqqətdən kənar qalmış yaradıcılığı ilə də maraqlanmağa başladılar və bu barədə yazdılar. Üzeyirbəyin jurnalistlik fəaliyyəti haqqında bir çox əsərlər, məqalələr çıxmışdır. Ədəbiyyatşünas M.Aslanov bəstəkarın fəaliyyətinin bu cəhətini uzun müddət tədqiq etmiş, bu mövzuda – "Üzeyir Hacıbəyov – jurnalist" əsərini yazmışdır.

Lakin eyni zamanda indiyədək Üzeyirbəy haqqında yazılan əsərlərdə "Hacıbəyli" imzası ilə tanınan yazıçı "Hacıbəyov" kimi təqdim olunub. Qeyd etmək lazımdır ki, "bəy" titul kimi Azərbaycanda məşhur olub. Bu titulu hər kəs adı ilə yanaşı işlədə bilməzdi, o yalnız müəyyən